

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 180 (23.822)

30 sentyabr 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb. Gürcüstanın Baş nazirini salamlayan Prezident İlham Əliyev iki qardaş ölkə arasında siyasi əlaqələrin gücləndirilməsinin bütün region üçün önəmli olmasından, Gürcüstanın çox müsbət investisiya mühitini, bir çox sosial və iqtisadi məsələləri həll etməyə imkan verən iqtisadi islahatları yüksək qiymətləndirib, Azərbaycanın dost və qardaş olaraq bu inkişaf proseslərini görməyə çox şad olduğunu deyib.

Baş nazir İrakli Qaribaşvili dəvətə görə minnətdarlığını bildirib, Gürcüstanın əlaqələrimizin güclənməsində, regionda sülh və sabitliyin olmasında maraqlı olduğunu diqqətə çatdırıb.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili işçi nahar ediblər.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 29 sentyabr tarixli Sərəncamı ilə 2021/2022-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdü verilmişdir. Həmin tələbələr arasında Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin məzunları da vardır.

**Novruzova İlhamə Natiq qızı**

**Həsənli Oğuz Malik oğlu**

**Məsmalıyev Sərcan Şahin oğlu**

## Elmin inkişafı dövlət siyasətinin tərkib hissələrindən biridir

*Ölkəmizdə təhsilin inkişafı sahəsində yaranmış ənənələrin milli məqsədə yönəldilməsi, bu ənənələrin müasir dövrün tələbləri səviyyəsində inkişafı müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.* ***“Bizim gördüyümüz işlər, təhsil sahəsində həyata keçirdiyimiz islahatlar Azərbaycan dövlətini daha da yüksəltməyə yönəldilibdir”****, – deyən görkəmli dövlət xadiminin ötən əsrin 70-ci illərində müəyyənləşdirdiyi təhsil strategiyası ölkəmizdə bu sahənin davamlı inkişafının təməlini yaradıb, müstəqillik illərində isə təhsillə bağlı daha geniş islahatlar həyata keçirilib, təhsil yeni inkişaf mərhələsinə qədəm qoyub.*

Ümummilli liderin hələ Azərbaycana rəhbərliyinin birinci dövründə böyük uzaqgörənliklə həyata keçirdiyi elm, təhsil və mədəniyyət siyasəti müstəqillik illərində milli ziyalı elitasının intellektual potensialının yüksəlməsində özünü göstərməklə, aparılan islahatların praktik nəticələr verməsini təmin etmişdir. ***“Təhsil millətin gələcəyidir”***, – deyən müstəqil Azərbaycan dövlətinin qurucusunun ötən əsrin 70-80-ci illərində respublikamızın elm və təhsil sistemində yaratdığı möhkəm bünövrənin, peşəkar kadr potensialının, yüksək diqqət və qayğının adekvat əks-sədası çağdaş tariximizdə bu sahənin ən möhtəşəm izlərinə çevrilmişdir. Böyük strateq məhz bu illərdə təhsil sisteminin tənəzzüldən çıxarılması və ölkənin gələcək inkişafının elmi təməl üzərində qurulması, respublikanın intellektual resurslarının güclənməsi üçün bütün qüvvə və bacarığı ilə səy göstərmişdir. Həmin dövrdə respublikada məktəb tikintisi prosesinin sürətlənməsi, maarif işinin yüksək səviyyədə təşkili, ixtisaslı kadrlar hazırlayan yeni ali məktəblərin açılması, fundamental və humanitar elmlərin inkişafı, əldə olunan kəşflərin, ixtiraların iqtisadiyyatın bütün sahələrində tətbiqi ulu öndərin təhsil siyasətinin əsasını təşkil etmişdir.

Görkəmli dövlət xadiminin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, təhsilin yeniləşdirilməsi ilə bağlı da əsaslı tədbirlər həyata keçirilmişdir. Bu dövrdə Azərbaycan təhsili həm məzmun, həm də struktur baxımından yeniləşmiş, bu sahənin beynəlxalq əlaqələri genişlənmiş, dünya təhsil sisteminə inteqrasiyası intensivləşmişdir.

Bu gün ulu öndərin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində təhsilin inkişafı dövlət siyasətinin əsas prioritet istiqaməti kimi müəyyənləşdirilib. Ölkə rəhbərinin həyata keçirdiyi məqsədyönlü və ardıcıl tədbirlər nəticəsində Azərbaycanda sosial-iqtisadi inkişafla yanaşı, yüksək elmi intellektual tərəqqiyə nail olunub, dövrün tələbləri ilə uzlaşan təhsil islahatları həyata keçirilib. Azərbaycanda milli maarifçilik ənənələri saxlanılmaqla dünya təhsil sisteminə inteqrasiyanın getdikcə genişlənməsi də bunun bariz ifadəsidir.

Muxtar respublikamızda da təhsil quruculuğu, təhsilin müasir tələblər səviyyəsində inkişafı ciddi önəm verilən məsələlərdən biridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində qədim diyarımızda müasir təhsil infrastrukturu yaradılıb. Belə ki, muxtar respublikada orta, orta ixtisas, ali təhsil və elm müəssisələri üçün müasir tələblərə cavab verən binalar tikilib, həmin obyektlərin maddi-texniki bazaları gücləndirilib.





Yaradılan müasir təhsil mühitinin nəticəsidir ki, ümumtəhsil məktəblərini bitirən məzunlar ali və orta ixtisas məktəblərinə qəbulda yüksək nəticələr göstərirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***“Muxtar respublikada təhsilin inkişafı beynəlxalq aləmə inteqrasiya, elmi-tədqiqat işlərinin səviyyəsinin yüksəldilməsi, yüksəkixtisaslı kadr hazırlığı işinə müasir yanaşmanı əhatə etməklə ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu təhsil siyasətinə əsaslanır”.***

Görülən tədbirlər təhsilin müasir inkişafına, eyni zamanda güclü intellektual və kadr potensialının hazırlanmasına şərait yaradır. O da xüsusi vurğulanmalıdır ki, bu gün muxtar respublikamızda təhsilin bütün sahələri özünün yeni inkişaf dövrünü yaşayır. Bu baxımdan ali təhsilin inkişafı istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində muxtar respublikamızın ali təhsil müəssisələri dünyanın qabaqcıl ali təhsil müəssisələri səviyyəsində güclü infrastruktura malikdir. Naxçıvan Dövlət və “Naxçıvan” universitetləri, Müəllimlər İnstitutu diyarımızda yüksəkixtisaslı kadrların hazırlanmasına öz töhfələrini verməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə Naxçıvan Müəllimlər İnstitutunun yeni tədris korpusunda fəaliyyət göstərməsi, onun elmi-pedaqoji kadr potensialının zənginləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, beynəlxalq əlaqələrinin yaradılması, respublika səviyyəli qabaqcıl ali təhsil müəssisəsi kimi tanıdılması istiqamətində xeyli iş görülüb.

Ulu öndərin müəyyənləşdirdiyi təhsil siyasətinin muxtar respublikada uğurla həyata keçirilməsinin daha bir nəticəsidir ki, bu gün artıq Azərbaycan elminin mükəmməl təşkilati strukturu formalaşıb, elmi araşdırmaların həyata keçirilməsi sistemli xarakter alıb. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 7 sentyabr tarixli Sərəncamı ulu öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş və uğurla həyata keçirilən elm siyasətinə xüsusi əhəmiyyət verilməsinin və muxtar respublikanın hərtərəfli və dinamik inkişafında bu sahənin də formalaşmasına qayğının ifadəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Elmdə son hədd, axırıncı tədqiqat anlayışı yoxdur. Elm davamlı inkişafdır. Bu inkişafla ayaqlaşmaq isə günün tələbidir”.***

Təşkil olunduğu vaxtdan fondun təşkilatçılığı ilə onlarla beynəlxalq və yerli səviyyəli konfranslar, seminarlar, dəyirmi masalar və disputlar keçirilib, elmi innovasiyaların, layihələrin dəstəklənməsi işinə diqqət daha da artırılıb, fond tərəfindən müxtəlif əsərlər nəşr etdirilib. Xüsusi elmi dəyərə malik həmin nəşrlər onu göstərir ki, qədim köklərə malik Naxçıvanla bağlı müxtəlif istiqamətlərdə elmi tədqiqatlar aparılması davamlı xarakter alıb. Naxçıvanda formalaşan elmi məktəblərin nailiyyətləri “Naxçıvan abidələri ensiklopediyası” (Azərbaycan və ingilis dillərində), “Naxçıvan Ensiklopediyası” (iki cilddə), “Naxçıvanın tarixi atlası”, “Naxçıvan tarixi” çoxcildliyi, “Naxçıvanın folklor antologiyası” (üç cilddə), “Azərbaycan xalçaları: Naxçıvan qrupu”, “Naxçıvanın teatr salnaməsi”, Naxçıvanın flora və faunasına aid “Qırmızı kitab”, “Naxçıvanın arxeoloji abidələri”, “Naxçıvan Muxtar Respublikasının coğrafiyası” (iki cilddə), “Dədə Qorqud yurdu Naxçıvan” tarixi-etnoqrafik atlası, “Azərbaycan Respublikası şənlik-mərasim nəğmələri”, “Naxçıvan ağızları” (türk dilində) və başqa qiymətli əsərlər şəklində elmi ictimaiyyətə təqdim olunub.

Naxçıvan Muxtar Respublikasında elmin inkişaf tarixinə nəzər saldıqda bir daha görürük ki, müstəqillik illəri bu inkişafın ən qabarıq şəkildə təzahür etdiyi bir mərhələdir. AMEA Naxçıvan Bölməsinin 6 elmi-tədqiqat müəssisəsinin elmi işçiləri, ali təhsil müəssisələrinin professor-müəllim heyəti elmi-tədqiqat işləri sahəsində çoxsaylı uğurlara imza atıblar. Onların apardıqları elmi-tədqiqat işlərinin nəticələri dünyanın müxtəlif ölkələrinin nüfuzlu jurnallarında da dərc edilir. Bütün bu uğurların əsasında elmin inkişafı, elmi-tədqiqat işlərinin səmərəliliyi məqsədilə yaradılan maddi-texniki baza, müasir elm, texnika və texnologiyanın ən son nailiyyətlərinin geniş tətbiqi dayanır.

Sentyabrın 21-də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirə də belə deməyə əsas verir ki, bu gün muxtar respublikada bu sahəyə qayğı davamlı xarakter alıb. Müşavirədə də qeyd olunduğu kimi, ötən dövrdə bölmə ulu öndərin müəyyənləşdirdiyi vəzifələrin icrasını diqqətdə saxlamış, Naxçıvanın qədim tarixi, mədəniyyəti, ədəbiyyatı, etnoqrafiyası, folkloru, adət-ənənələri, abidələri, təbiəti və təbii sərvətləri ətraflı öyrənilmiş, Naxçıvanşünaslıq mühüm elmi nailiyyətlərlə zənginləşdirilmişdir.



Muxtar respublikamızda elm, təhsil sahəsində görülən işlər məzmun etibarilə çoxşaxəlidir. Son illərdə həm strateji, həm də taktiki baxımdan müasir keyfiyyət meyarlarına cavab verən xeyli işlərin görülməsi, elm, təhsil istiqamətində əsaslı islahatların uğurla davam etdirilməsi bu sahənin ildən-ilə daha da inkişaf edəcəyini deməyə əsas verir. AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi tərəfindən 2019-cu ildən həyata keçirilən “Sabahın tədqiqatçıları” layihəsi də gələcəyin mütəxəssislərinin yetişdirilməsi baxımından nümunəvi addımdır. Həmin layihə çərçivəsində Naxçıvan şəhərinin ümumtəhsil məktəblərində təhsil alan və elmə marağı olan şagirdlər bölmə alimləri tərəfindən müxtəlif fənlər üzrə fərdi və kollektiv şəkildə tədqiqatlara cəlb edilib. Bölmə kollektivinin şagird və tələbələrlə birgə mühüm əhəmiyyətə malik olan müvafiq layihələr çərçivəsində həyata keçirdiyi tədbirlər hazırda da davam etdirilir. Belə tədbirlərin reallaşması etibarlı gələcəyimizə zəmanət verir. Bu isə o deməkdir ki, istedadlı gənc mütəxəssislər yetişdikcə ayrı-ayrı elm sahələrimizdə qazanılan uğurların da sayı artacaq. Onların da elm sahəsində kəşfləri istehsalata tətbiq ediləcək. Ali Məclis Sədrinin müşavirədə də dediyi kimi ***“Elm o zaman həqiqi inkişaf mərhələsinə çatır ki, onun nailiyyətləri təhsildə tətbiq olunur”.***

*Bu gün muxtar respublika rəhbərinin elm adamlarına göstərdiyi diqqət və qayğı, doğma diyarımızdakı elmi mühit elmin, milli ziyalılığın inkişafına, elmi potensialın artmasına öz dəyərli töhfələrini verməkdədir. Belə diqqət və qayğı isə ölkəmizin güclənməsinə, inkişafına, dünya miqyasında tanınmasına və layiqli yerinin təmin olunmasına xidmət edir.*


**Qızıltac ŞAHBAZOVA**

*Naxçıvan Müəllimlər İnstitutunun dosenti,*

*Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında" 2021-ci il 7 iyun tarixli Sərəncamı ilə muxtar respublikanın təhsil müəssisələrində STEAM təhsilinin tətbiqi sahəsində işlər davam etdirilir. Görülən tədbirlərin davamı olaraq ümumtəhsil məktəbləri ilə yanaşı, Naxçıvan Dövlət Texniki Kollecində də STEAM kabinəsi yaradılmış, sentyabrın 22-də həmin kabinənin təqdimatı keçirilib.*

# Naxçıvan Dövlət Texniki Kollecində STEAM kabinəsi yaradılıb



Təqdimatda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, muxtar respublikada təhsilin inkişafı üçün yaradılan şərait yeni təlim metodlarının tətbiqinə geniş imkanlar açmışdır. Buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə 2019-2020-ci tədris ilindən muxtar respublikada STEAM layihəsinin tətbiqinə başlanılmışdır.

Vurğulanıb ki, ötən müddət ərzində STEAM təhsil metodunun tətbiq edildiyi təhsil müəssisələrinin sayı 53-ə çatdırılmış, yerli və Azərbaycan Respublikası Təhsil Nazirliyinin mütəxəssisləri, eləcə də beynəlxalq və yerli təlimçilər tərəfindən ümumtəhsil məktəblərinin 200-dən çox müəllliminə və pedaqoji profilli ixtisaslarda təhsil alan tələbələrə təlimlər keçirilmiş, təhsil metodunun sistemli tətbiqi məqsədilə VI-VII siniflər üçün STEAM tədris proqramı və tədris vəsaiti hazırlanmışdır.

Qeyd edilib ki, STEAM bacarıqlarına sahib işçi qüvvəsinə ehtiyac artdığı üçün STEAM təhsili dünyanın hər yerində təhsil islahatının mərkəzindədir və getdikcə daha çox əhəmiyyət kəsb edir. Muxtar respublikada da təhsilin beynəlxalq təcrübəyə uyğunlaşdırılması nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il 7 iyun tarixdə "Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. STEAM təhsil metodunun əhatə dairəsinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edən Sərəncamın icrası ilə bağlı ümumtəhsil məktəbləri ilə yanaşı, Naxçıvan Dövlət Texniki Kollecində də STEAM kabinəsi yaradılmışdır.

Təhsil naziri texniki sahələr üzrə ixtisaslaşmış tələbələrin bu təhsil metodunu dərindən yiyələnmələrinin və STEAM kabinəsinin imkanlarından yararlanaraq tələbələrin Startap layihələr üzərində işləmələrinin zəruriliyini vurğulayıb, muxtar respublika təhsilində interaktiv təlim metodlarının tətbiqinə göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təhsil işçiləri adından minnətdarlığını bildirib.

Tədbirdə Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov kollecin ixtisasları haqqında məlumat verib, tələbələrin STEAM təhsil metodu ilə qazandıqları bilikləri sənət, dizayn və yaradıcılıq məhsullarına, o cümlədən layihələrə çevirmək üçün kabinənin əhəmiyyətli olduğunu bildirib. Kollecin direktoru bu təhsil metodunun tətbiqi üçün yaradılan şəraitə görə dövlətimizə minnətdarlıq edib.

Sonra kabinədə quraşdırılan avadanlıqlara baxış olub. Məlumat verilib ki, kabinə müasir dizaynda mebel avadanlıqları, elektron lövhə, 2 ədəd kompüter, 1 ədəd 3D printer və müxtəlif rəngdə çap materialı, Make block, mBot, Arduino BT robotlar, Mindstorms və education lego dəstləri, 3D qələmlər, Arduino və BBC Micro: bit proqramlama və inkişaf dəstləri, servo mühərriklər, LCD ekranlar, micro idarəetmə modulları, RGB led və naqillər, müxtəlif ölçüdə mikromexanizmlər, kiçik elektronik komponentlər, təlim dəstləri, müxtəlif fiqurların hazırlanması üçün lazım olan alətlər, tədris üçün ofis ləvazimatları və materialları ilə tam təmin olunub.

Tədbirin sonunda tələbələr STEAM təhsil metodu əsasında hazırladıqları layihələri təqdim ediblər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***



# Dünya tarixinə yazılan Vətən mübarizəmizdən 1 il ötür...

Vətən müharibəsinin başlanmasının bir ili tamam oldu. O müharibə ki Azərbaycan 30 il ərzində bunun baş verməməsi üçün çox çalışdı, çox səbir etdi. Lakin reallıqlar çox zaman fərqli həqiqətləri ortaya qoyur və hər kəsə seçim etmək imkanı verir. Belə olan tərzdə ölkəmiz də öz seçimini etdi. Azərbaycanın haqq uğrunda savaşı illərdir, zəhərli ideologiyalarla özlərinə "dünya" quran, xəstə təxəyyüllə "bu dünyaya" can atmağa çalışan ermənilər və onların havadarları üçün gözlənilməz oldu. Söhbət ondan getmir ki, ermənilər savaşa hazır deyildilər, əksinə, onlar ötən üç onillik ərzində xeyli silah-sursat əldə etmiş, işğal etdikləri Azərbaycan ərazilərində elə güclü istehkam səddləri qurmuşdular ki, onları yarmaq hər kəs, elə ermənilərin özləri üçün də mümkünsüz görünürdü. Bundan əlavə, uzun illər ərzində bütün təmas xətti boyunca basdırılan minalar da həm intensiv döyüşlərin aparılmasının, həm də bu ərazilərə keçilməzliyin mümkünsüzlüyü qənaətini yaratmışdı. Lakin Azərbaycan Ordusu bütün bu səddləri darmadağın edərək istəyinə çatdı – Ali Baş Komandanın qarşıya qoyduğu vəzifəni layiqincə yerinə yetirdi. Beləliklə, qəhrəman hərbçilərimizin misilsiz rəşadəti hesabına, şəhidlərimizin müqəddəs qanı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Müharibənin gedişində də bir çox ölkələrdən gələn ardıcıl təzyiqlər, təhdidlər Azərbaycanı öz haqq yolundan döndərə bilmədi. Azərbaycanın Zəfəri illərdir, "yenilməz, qalib erməni ordusu" mifini yerləyeksan etdi, Azərbaycan əsgərinin qüdrətini bütün dünyaya göstərdi.

Azərbaycan bütün işğal illəri dövründə dəfələrlə problemin danışıqlar, sülh yolu ilə həll olunmasına çalışdı. Hətta 2016-cı ilin aprel döyüşləri zamanı da Ali Baş Komandan əməliyyatların müharibə səviyyəsinə qaldırılmasını istəmədi və düşündü ki, bütün bunlar Ermənistanın düşünərək düzgün qərar qəbul etməsi üçün yetərlidir. Ancaq sonrakı proseslər onu göstərdi ki, zərərli faşist ideologiyası ilə böyüyənlər yalnız gücün dilindən anlayırlar. Buna görə də Azərbaycan Ordusu bu dəfə heç bir güzəştə getməyərək bütün təmas xətti boyu hücuma keçdi və ermənilərin başına "Dəmir yumruq" endirməklə onlara heç zaman almadıqları zərbəni vurdu.



Vətən müharibəsi 27 sentyabr 2020-ci ildə səhər saatlarında ermənilərin işğal olunmuş ərazilərimizdən növbəti hərbi təxribatı ilə başladı. Mənfur düşmən yaşayış məntəqələrimizi, döyüş mövqelərimizi şiddətli artilleriya atəşinə tutdu. Nəticədə, hərbi qulluqçularımız, onlarla yanaşı, 11 dinc sakinimiz (ikisi uşaq olmaqla) həlak oldu. Buna cavab olaraq Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev azğınlaşmış düşmənin hərbi təxribatının qarşısını almaq, onu öz təcavüzkarlıq siyasətinə son qoymağa məcbur etmək məqsədilə bütün cəbhəboyu əks-hücum əmri verdi. Bununla da 44 gün sürən müharibə ərzində Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızı düşmən işğalından azad etdi. Beləliklə, 30 illik işğala 44 gün ərzində son qoyuldu. Bu həm də beynəlxalq hüququn, tarixi ədalətin bərpası, erməni faşizminin və mifologiyasının belinin qırılması idi.

Azərbaycan bu müharibəni beynəlxalq hüquq qaydalarına uyğun, ədalətlə apardı. Ancaq Ermənistan ordusu dinc Azərbaycan şəhərlərini hədəfə almaqla, mülki əhaliyə qarşı ballistik raketlər, fosforlu, kasetli bombalardan istifadə etməklə böyük miqyaslı hərbi cinayətlər törətdi. Bunun nəticəsində yüzə yaxın mülki şəxs, o cümlədən körpələr, uşaqlar, qadınlar, qocalar həlak oldu. 400-dən çox mülki şəxs yaralandı, 5 mindən çox ev dağıdıldı, zədələndi. Ermənilər müharibə dövründə döyüş meydanından uzaqlardakı Bərdə, Gəncə, Goranboy, Naftalan, Mingəçevir, Yevlax, Qəbələ və digər rayonlara raket zərbələrini endirməklə özlərinin faşist simasını bir daha bütün dünyaya göstərdi.

44 günlük Vətən müharibəsi Şuşanın işğaldan azad olunması ilə başa çatdı. Milli Ordumuz Azərbaycanın bu müqəddəs mədəniyyət beşiyini azad etməklə düşməni kapitulyasiya aktını imzalamağa məcbur etdi. Bu müharibədə Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar dünya hərb tarixinə qızıl hərflərlə yazıldı. Dünyanın ən inkişaf etmiş ölkələrinin hərbi mərkəzləri Azərbaycanın müharibədə tətbiq etdiyi möhtəşəm taktiki gedişləri dərindən öyrənərək malik olduqları orduların təkmilləşdirilməsinə və ən müasir silahlarla komplektləşdirilməsinə böyük ehtiyacın olduğunu etiraf etdilər. Müharibənin başlanmasından bir il ötməsinə baxmayaraq, indiyə kimi Azərbaycan Silahlı Qüvvələrinin döyüşlərdə tətbiq etdiyi hərbi manevr və taktiki gedişlər hələ də dünyanın ən böyük hərbi araşdırma və beyin mərkəzlərində öyrənilir, müasir ordularda tətbiqi həyata keçirilir. Müharibənin başlanmasınadək ordumuz haqqında dünya ictimaiyyəti o qədər də məlumatlı deyildi, hətta bir çox hallarda yalan erməni təbliğatı Silahlı Qüvvələrimiz haqqında mənfi fikirlərin formalaşmasına da yol açmışdı. Lakin Vətən müharibəsi həm ordumuzun texniki imkanlarını, həm də əsgər və zabitlərimizin necə qorxmaz, döyüşkən olduğunu ortaya qoydu.

Vətən uğrunda apardığımız savaşda muxtar respublikamızın hərbi təhlükəsizliyini təmin edən Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti də dastan yazdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu möhtəşəm qələbədən sonra Naxçıvana ilk səfərində Naxçıvan Ordusunun gücünü belə qiymətləndirdi: ***"İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda mən onu da bildirməliyəm, yəni artıq bildirə bilərəm ki, Naxçıvan Ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. İndi biz həmin o silah-sursatların ehtiyatlarını təmin edirik, ancaq bu da olub. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının güclənməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır".***



Təbii ki, müharibələr itkisiz ötüşmür. Bu savaşda şəhidlərimiz də oldu, qazilərimiz də. Lakin istər aktiv döyüşlərin getdiyi vaxt, istərsə də postmüharibə dövründə muxtar respublikaya gətirilən şəhidlərimiz elə hava limanında ən yüksək səviyyədə – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən ehtiramla qarşılanaraq ailələrinə təhvil verildi. Şəhidlərin istər qarşılanma, istərsə də dəfn mərasimləri müvafiq icra hakimiyyəti orqanları və çoxsaylı kütlə tərəfindən mütəşəkkilliklə həyata keçirildi. Digər tərəfdən müharibə şəhidlərinin ailələrinə, qazilərə, hərtərəfli dövlət dəstəyi göstərildi və bu dəstək hazırda da davam etdirilir. Müharibədə iştirak etmiş hərbi qulluqçuların əməyi isə dövlətimiz tərəfindən yüksək qiymətləndirildi, onlar müxtəlif adlara layiq görüldülər, orden və medallarla təltif olundular. Yeri gəlmişkən, sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının ərazisində yaşayan Vətən müharibəsi ilə əlaqədar şəhid ailəsi statusu almış, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması haqqında" Sərəncam imzaladı. Bu Sərəncam müvafiq kateqoriyadan olan vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına öz töhfəsini verəcəkdir. Dövlət başçısı cənab İlham Əliyevin bu il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Vətən müharibəsi şəhidlərinin məzarlarını da ziyarət etməsi Vətən uğrunda böyük şücaət və qəhrəmanlıq göstərərək öz canlarından keçənlərin dövlətimiz üçün hər zaman hər şeydən üstün olduğunu göstərir.

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə Azərbaycanda Vətən Müharibəsinin başlandığı gün – 27 sentyabr Azərbaycan Respublikasında "Anım Günü" kimi qeyd edildi. Bu addım Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, müqəddəs Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, bu yolda canlarını fəda etmiş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin ruhlarına, onların doğmalarına yüksək ehtiramın göstəricisidir. Dünya azərbaycanlıları 27 sentyabrda bütün dövrlərdəki şəhidlərimizi bir daha minnətdarlıqla andı, onların əziz xatirəsini yad etdi. Biz isə şəhidlərimizin müqəddəs ruhları qarşısında bir daha baş əyir, onların qanı ilə qazanılmış bu Qələbə ilə hər zaman fəxr edəcəyik!***

**Səbuhi HƏSƏNOV**

Tarixin izi ilə

# Şərur sözünün etimologiyası


Qazma mağarası

***Azərbaycanın ayrılmaz bir parçası olan doğma Naxçıvanımızın tarix və mədəniyyət abidələrinin araşdırılması həmişə dövlətimizin diqqət mərkəzində olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə görüşündə bölmədə xeyli işlərin görüldüyünü, lakin qarşıda da xeyli vəzifələrin durduğunu demişdir. Belə mühüm məsələlərdən biri də Naxçıvanın rayonlarının tarixinin yazılmasıdır.***

Naxçıvan Muxtar Respublikasında insanların qədim dövrdən məskunlaşdığı bölgələrdən biri də Şərur rayonudur. Bu proses Uzaq Daş dövrünə gedib çıxır. Qazma mağarası, Ovçulartəpə, Qızqala və Oğlanqala abidələri bu yurdun tarixini öz qoynunda saxlamaqdadır. Rayonun tarix və mədəniyyət abidələri ilə bağlı çoxsaylı kitab və məqalələr yazılsa da, “Şərur” sözünün etimologiyası həmişə tədqiqatçıların diqqətini çəkmiş, müxtəlif fikirlər irəli sürülmüşdür. Qeyd edək ki, “Şərur” sözü həm mənbələrdə, həm də xalq arasında müxtəlif şəkildə işlədilmişdir. Bu ad “Kitabi-Dədə Qorqud” dastanında “Şəruk” kimi xatırlanmış, xalq arasında “Şərur” və daha çox isə “Şəril” kimi işlədilmişdir. Tədqiqatçılar daha çox sözün “Şərur” variantına üstünlük vermiş və onun etimologiyasını bu şəkildə izah etmişlər. Arif Rəhimovun fikrinə görə, elam-kassit dilində *“Şeru” “çol”, “düzənlik”* mənası ifadə etmişdir. Qeyd edək ki, Şərur rayonunun böyük hissəsi düzənlik olsa da, dağlıq ərazilər də var. Tədqiqatçı A.Bağırov “Şərur” adının “Salor”//“Salur” tayfa adından törəndiyini qeyd edir. Onun fikrinə görə, qədim türk dillərində geniş yayılmış “s”-“ş” dəyişməsi nəticəsində “Salur” – “Şalur” şəklinə və l – “r” dəyişməsi nəticəsində isə “Salur” – “Şərur” və nəhayət, “Şərur” şəklinə düşüb. Məlumdur ki, Salur 24 oğuz boyundan birinin adıdır. Tədqiqatçı F.Rzayev “Şərur”//“Şəril” sözündəki ikinci “ur”, “il” komponentlərinin qədim və müasir türk sözü


Qızqala

olan “el”, “yurd” sözləri ilə səsləşdiyini qeyd etmişdir. Ümumiyyətlə, mövzu ilə bağlı araşdırmalar aparan tədqiqatçılar “Şərur” adının türk mənşəli olması barəsində həmfikirdirlər.

Digər tədqiqatçılar Şərur sözünün “Sar” və “Ur” komponentlərindən ibarət olduğunu və hər iki komponentin türk tayfalarının adı ilə bağlı olduğunu qeyd etmişlər. Şərur adının “Kitabi-Dədə Qorqud” dastanında xatırlanan “Şəruk” variantı qədim Şumer şəhərləri Ur və Urukla müqayisə edilmişdir. Qeyd etmək istəyirik ki, “Ur” qədim dillərdə, o cümlədən şumer dilində şəhər, “Sar” sözü isə türk dillərində yüksəklik mənasında işlədilmişdir. Müasir Azərbaycan dilində bu ifadə *“sarğı”* sözündə qorunub saxlanmışdır. “Ur” isə qeyd etdiyimiz kimi, şəhər, yüksəklik mənası ifadə etmişdir. Çünki qədim şəhərlər, adətən, yüksəklikdə inşa olunur, qala divarları ilə əhatə edilirdi. Ehtimal ki, şəhərlər ətraf ərazilərdən yüksəkdə yerləşdiyinə görə belə adlandırılırdı. Bu baxımdan “Şərur” sözünün şəhər mənasında işləldildiyini demək olar. “Kitabi-Dədə Qorqud” dastanında rast gələnən “Şəruk” sözünün bu mənanı ifadə etdiyini demək olar. Məlum olduğu kimi, şumerlərdə Ur, Uruk şəhərləri olmuşdur. “Uk” şəkilçisi indi də Azərbaycan dilində sözdüzəldici şəkilçi kimi istifadə olunur. Məsələn: uç-uq, sök-ük və sair.

“Şərur” sözünün etimologiyası araşdırılarkən bu sözün mifoloji mənasına da diqqət çəkilmişdir. Bəzən mifologiyanın formalaşmasını daha gənc hesab edirlər. Lakin biz düşünürük ki, mifologiya çox qədim tarixə malikdir və qədim insanların həyatında dini inancların çox böyük rolu olub. Bu günə qədər gəlib çıxan inanclar və mifoloji dünyagörüşü qədim əcdadlarımızın tarixi ilə yaşıddır. Filoloq alimlərimiz “Şərur” sözünü Şumer mifologiyasında xatırlanan “Şərur” obrazı ilə bağlı olduğunu qeyd etmişlər. Tədqiqatçıların fikrinə görə, Şərur obrazı şumerlərdə xüsusi əhəmiyyətə və hörmətə malik olmuşdur, həm də o dərəcədə əhəmiyyətli olmuşdur ki, o, Ninurta kimi ilahəyə xalqa əzab verən Asaqanı öldürmək üçün göstəriş vermişdir. Mifin məzmunu tam məlum olmasa da, əfsanəyə görə, Ninurta Şəruru Asaqanın üzərinə atır və o, Asaqanı dəlib keçir. Göründüyü kimi, Şərur burada gücü, qüvvəti, əzəməti təmsil edir, tətqiqatçılar bu sözün nizə mənasında olduğunu da qeyd edirlər. Belə hesab edirik ki, xalq arasında daha çox işlədilən “Şəril” sözünün etimologiyası da yuxarıda deyilən fikirlərlə səsləşir. Qeyd etdiyimiz kimi, “sar” yüksəklik, yuxarı mənasını ifadə edir. “İl” isə el mənasındadır. Xalq arasında uzun illərboyu “Şəril” kimi xatırlanan bu diyar tarixi mənbələrdə “Şəril eli”, “Şəril mahalı”, “Şəril çuxuru” adları ilə xatırlanmışdır. “Şərili”, “Ağır Şərili” və “Orta Şərili” aşıq havaları indi də bu diyarda aşıqlarımızın dilindən düşmür.


Ovçulartəpə

Yuxarıda deyilənlərə yekun vuraraq deyə bilərik ki, Şərur rayonunun adı qədim Şumer mifologiyası ilə bağlı olmuş, yaşayış məntəqəsinin və nəhayət, müəyyən bir bölgənin adını ifadə etmişdir. Araşdırmalar göstərir ki, Şərur rayonunun qədim mədəniyyətləri Mesopotamiya ilə sıx iqtisadi-mədəni əlaqələr şəraitində inkişaf etmiş, Naxçıvan qədim şəhər mədəniyyətinin beşiyi olmuşdur.


Oğlanqala

“Şərur” sözünün etimologiyası bu bölgədə olan digər toponimlərə də aydınlıq gətirməyə imkan verir. Belə ki, yuxarıda qeyd etdiyimiz şumer dastanında yeraltı dünyanı təmsil edən “Kür” obrazına da rast gəlinir ki, bu da Şərur rayonunda olan Kürçülü kəndinin adında öz ifadəsini tapmışdır. Dastanda Şərur məhz yeraltı dünyanın hökmdarı olan Kür və onun nümayəndəsi Asaqaya qarşı mübarizə aparır. Qeyd etmək istəyirik ki, Kürçülü kəndinin adı bəzən yanlış şəkildə “Kürdçülü”, Qorçulu kəndi isə “Qurdçulu” yazılmışdır. Halbuki kəndlərin adı Kürçülü və Qorçulu şəklində olmuşdur. Tədqiqatçılar “Kür” və “Qor” sözlərinin eyni anlamda olduğunu yazmışlar. Məlum olduğu kimi, çullu tayfası qədim dövrlərdən Azərbaycan ərazisində yaşayan tayfalardan biri olmuşdur. Ümumiyyətlə, istər “Şərur” sözünün etimologiyası, istərsə də Şərurda saxlanılan digər yer, yurd və tayfa adları bu rayonun qədim tarixini izləməyə imkan verən, bu bölgənin qədim türk yurdu olduğunu təsdiq edən faktlardandır.

*Şərur rayonunun tarixi ilə bağlı araşdırmalarımız davam edir. Belə hesab edirik ki, bu qədim diyarın tarixi ilə bağlı daha yeni faktlar aşkar olunacaqdır.*

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

Yeni nəşrlər

# Əsrə bərabər illər

***Həmkarımız Rauf Əliyev 7 ilə yaxın bir müddətdə doğma “Şərq qapısı” qəzetində çalışıb, öz zəhmətkeşliyi ilə kollektivin hörmətini qazanıb. O, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) Naxçıvan bürosunun rəhbəri kimi muxtar respublika ilə bağlı informasiyaların mərkəzi informasiya agentlikləri vasitəsilə ölkə ictimaiyyətinə operativ və dolğun çatdırılması istiqamətində səmərəli fəaliyyət göstərir, təcrübəli jurnalist kimi gənc əməkdaşların yetişməsində fəallıq göstərib. Öz üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə məsuliyyətlə yanaşıb.***



Yenicə çapdan çıxmış “Əsrə bərabər illər” kitabı Rauf Əliyevin məhsuldar fəaliyyətinin bəhrəsidir. 6 fəsildən ibarət olan kitabı annotasiyada da qeyd edildiyi kimi, “Naxçıvanın 6 ilinin ensiklopediyası” da adlandırmaq olar. Çünki burada 2015-2020-ci illərdə qədim diyarımızın hər gününün inkişaf və tərəqqi tarixi özünə yer alıb. Bu dövrün Naxçıvanını öyrənmək istəyənlər üçün, sözün əsl mənasında, arxivə, digər mənbələrə istinad etməyə lüzum yoxdur.

Kitabın məziyyətləri ilə bağlı burada bir neçə məqam xüsusi qeyd olunmalıdır. Müəllif qələmə aldığı hər bir yazıda faktla, görülən işlə, həyata keçirilən tədbirlə yanaşı, həm də onların mahiyyətini ortaya qoyur, bir jurnalist kimi münasibətini bildirir. Müqayisələr, paralellər aparır. Bütün bunlar yazılardan qırmızı xətt kimi keçir. Görülən işlərin təməlində dayanan məsələlərə müəllif bir aspektdən yanaşır: dünənə ehtiram, bu günə cavabdehlik, sabaha məsuliyyət.

İstər tikinti-quruculuq, istər iqtisadiyyat, istər təhsil, səhiyyə, mədəniyyət, rabitə, istər insanların məşğulluq problemləri ilə bağlı tədbirlərin oxucuya təqdimatında Rauf Əliyev təfərrüata varmır; bu işlərin hər birimiz üçün dəyərini ortaya qoyur. Sürətli tərəqqi və inkişafdan danışırsa, bunu təbii hesab edərək fikirlərini bildirir. Nizam-intizamın inkişafın, yüksəlişin, yeni-yeni uğurların başlıca səbəbi və aparıcı qüvvəsi olmasını sanballı dəlillərlə oxucuya çatdırır. Güclü iqtisadiyyatın formalaşmasını, yeni rifaha yol açılmasını, çox doğru olaraq xalqın iradəsi ilə rəhbərin dühasında, xalq-dövlət birliyində görür və bunları əsaslandırır.

Naxçıvan şəhərinin 2018-ci ilin İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə əlaqədar qələmə alınmış yazılarda müəllif bunun üçün vacib olan və dünya praktikasının qəbul etdiyi amilləri zənginliyi ilə izah edir. Eyni zamanda ölkəmizin Gənclər Paytaxtı kimi Naxçıvanda dövlət gənclər siyasətinin uğurla həyata keçirildiyini həyati faktlarla göstərir; qədim diyarımızda insan kapitalına verilən qiyməti yüksək dəyərləndirir. Müasir Naxçıvanı böyük zəhmətin, fədakarlığın, vətənpərvərliyin, dövlətə və xalqa sarsılmaz sədaqətin təcəssümü hesab edir. Müəllim Naxçıvanın davamlı yüksəlişinin təmin edilməsini burada müasir dövrün çağırışlarına cavab verən inkişaf strategiyasının həyata keçirilməsinin məntiqi nəticəsi olduğu qənaətinə gəlir. Qədim diyarımızın XXI əsrdə ən uca zirvəyə yüksəlməsini təbii proses kimi qələmə alır, yəni seçilən yolun düzgün olduğunu diqqətə çatdırır. Bunun ifadəsi kimi Naxçıvanın keçmişimizə dərin hörmətin, gələcəyə sarsılmaz inamın və insanların qurub-yaratmaq əzminin daha da artması, aparılan uğurlu islahatlar, maddi dəyərlərin insan kapitalına çevrildiyi məkanın regional cazibə mərkəzinə çevrilməsinin hər bir naxçıvanlını ürəkdən sevindirməsini müəllif zəngin faktlarla qələmə alır. Kitabda “Son söz əvəzi və ya dahilərin arzularındakı Naxçıvan” yazısı “Əsrə bərabər işlər”in məntiqi sonluğu kimi diqqəti çəkir.

Həmkarımız Rauf Əliyevi “Əsrə bərabər illər” adlı ilk kitabının çapdan çıxması münasibətilə təbrik edir, gələcək fəaliyyətində ona uğurlar arzulayırıq.

**Muxtar MƏMMƏDOV**

# Universitetdə Keyfiyyət Təminatı Mərkəzi yaradılıb

Muxtar respublikamızın tanınmış ali təhsil ocaqlarından olan “Naxçıvan” Universiteti dünya təcrübəsindən yararlanaraq təhsilin keyfiyyətini yüksəltmək və ümumilikdə, Azərbaycanda bu prosesin həyata keçirilməsinə dəstək olmaq məqsədilə üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışır. Qeyd edək ki, qədim diyarda təhsil sahəsinə göstərilən diqqətdən “Naxçıvan” Universiteti də öz payını alıb. Burada müasir şərait yaradılıb, ali təhsil ocağının maddi-texniki bazası gücləndirilib. Universitetdə Keyfiyyət Təminatı Mərkəzi yaradılıb.

Mərkəzin yaradılmasında məqsəd tələbəyönümlülük, tədrisdə və öyrənmədə keyfiyyətliliyə nail olmaq və rəy mexanizmlərinin formalaşdırılması və istər akademik, istərsə də inzibati heyətin peşəkarlığının təmin edilməsindən ibarətdir. Universitetin beynəlmiləlləşməyə və beynəlxalq keyfiyyət standartlarına nail olmağa olan böyük istəyini nəzərə alaraq bu yöndə addımların atılması zərurətindən, həmçinin qarşıya qoyulan məqsədlərin müəyyənləşdirilməsi, həmin məqsədlərə nail olunması, habelə universitetin davamlı inkişafının təmin edilməsi məqsədilə keyfiyyət təminatı sisteminin qurulması məqsədəuyğundur. “Naxçıvan” Universiteti uğurlu keyfiyyət təminatı sistemi yaradılması ilə universitetin beynəlxalq keyfiyyət standartlarına uyğunluğunun təmin edilməsinə, təhsilin keyfiyyətinin yüksəldilməsinə, əmək bazarı üçün yüksək səviyyəli mütəxəssislərin hazırlanmasına, idarəçiliyin keyfiyyətinin yüksəldilməsinə, universitet daxilində hesabatlılığın və davamlı monitorinqin təmin olunmasına, universitetin cəmiyyətə verdiyi töhfələrin artırılmasına nail olmağı hədəfləyir.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

# Fotomüsabiqənin qalibləri bəlli olub



Muxtar respublikanın turizm imkanlarının təbliği və istedadlı yeniyetmə və gənclərin aşkara çıxarılmasına xidmət edən müsabiqəyə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda keçirilən mükafatlandırma mərasimi ilə yekun vurulub.

Gənclər və İdman Nazirliyinin əməkdaşı Azadə Əliyeva və Rəssamlar Birliyinin əməkdaşı, rəssam-fotoqraf Araz Xudiyev müsabiqənin məqsədləri və fotoların qiymətləndirmə meyarları haqqında danışıblar. Bildirilib ki, muxtar respublikanın göz oxşayan təbiəti, mədəni-tarixi abidələri, abad rayon və kəndləri, flora və fauna müxtəlifliyi, burada aparılan genişmiqyaslı abadlıq və quruculuq işləri, əlverişli nəqliyyat infrastrukturu, əyləncə və istirahət mərkəzləri və digər özəllikləri sayəsində həvəskar və ya peşəkar fotoqraflar üçün geniş yaradıcılıq imkanları yaradır.

Çıxışların ardınca mükafatlandırma olub. İlk üç yer və həvəsləndirici yerlərdə qərarlaşan iştirakçılara diplom, fəxri fərman və hədiyyələr təqdim edilib. Sonra müsabiqəyə təqdim olunan fotolardan ibarət sərgiyə baxış olub.

Nəticələrə gəlincə, müsabiqənin qalibləri 5 nəfərdən ibarət münsiflər heyətinin ümumi qərarına əsasən müəyyənləşib. Sara Əsədova ilə Kamil Məmmədli birinciyə layiq görülüblər. Şahsuvar Əfsanə, Anar Sadiqov və Nihat Cabbarlı ikinci sırada qərarlaşıblar. Tərlan Məmmədova, Aysun Nağdəliyeva və Aliyə Zalovaya məxsus fotolar isə üçüncü yerlə qiymətləndirilib.

Qeyd edək ki, müsabiqəyə muxtar respublikanın müxtəlif şəhər və rayonlarında yaşayan 14-29 yaşlı yeniyetmə və gənclər olmaqla, ümumilikdə, 70 iştirakçı qatılıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***



## Yan-yana uyuyan dörd qəhrəman...

***Qədimdən-qədim doğma rayonum, doğma şəhərimiz, hər zaman tarixlərdə öz yerini tutan, fərqlənən Culfa! Azərbaycana Zəfər tarixi yazanlar sırasında igidlərin ilə seçilirsən. 15 qəhrəmanın sənin adını daha da ucalara qaldırıb. Culfadan Qarabağ torpaqlarına, oradan da bütöv Azərbaycana sədanı yayıb. Onların mərdlikləri, qəhrəmanlıqları ilə bir başqa dəyərə qalxmısan, sanki bir ildə bir başqa olmusan, başqa bir qürura qovuşmusan, Culfa!***

Ətrafında mənliyimi, kimliyimi ucaldan, kiçik təpədən böyük dağa dönən müqəddəs yerin var, o yerdir ki hər baxışda diqqətimi, düşüncəmi çəkir. İndi həmin yerə doğma münasibətim var, bir başqa sevgi bəsləyirəm, Vətən sevgisi qədər... Çünki o yerdə yan-yana uyuyan, ölkəsinə Zəfər qazandıran, ərazi bütövlüyünü bərpa edən, başının üzərinə qanlarından al-qırmızı rəng verərək üçrəngli bayrağımızı dalğalandıran dörd qəhrəmanın, igidin var... O igidlər ki uşaqlığından hiss ediblər torpaq itkisini, lap körpəliyindən ürəklərində böyüdüblər düşmənə nifrət hissini... Bəlkə də, qəlblərində zəfər qazanacaqları günü həyata keçirmək üçün böyüməyə can atıblar. Hər necə olub, bilmirəm. Ancaq onu bilirəm ki, Vətənimə daha bir dəyər qatıblar, hər qarışına, hər ovuc torpağına qanını qataraq bütöv Azərbaycan yaradaraq Vətənləşiblər...

44 günlük Vətən müharibəsi bu xalqın əbədilik sevinci oldu. Bununla yanaşı, həm də çox təəssüfləndik şəhid verdiyimiz üçün. Lakin qətiyyətlə əmin olduq ki, şəhidinin uyuduğu bu torpağı heç kimə verməz bu Xalq! Onun müqəddəsliyi şəhididir, şəhidinin yadigar qoyduğu, əmanət etdiyi Vətənidir... O Vətəndir ki daha basılmaz, kimsəyə verilməzdir! Əmanətdir bizə və bizdən sonra gələnlərə...

Azalır zaman, bizə zəfəri yaşatdığınız gün gəlib çıxır, şəhidlərim! Artıq Vətənimin bütöv Azərbaycan olmasının bir ilini qeyd edəcəyik. Şəhidlərim, bilirəm ruhlarınız Vətən səmalarından bizlərə baxır və çox xoşbəxtdirlər ki, illərin nisgilinə, torpaq həsrətinə son qoyub xalqına, millətinə xoş günlər ərməğan ediblər. Biz də çox xoşbəxtik ki, Kənan, Nicat, Yaqub, Ceyhun... Sizin kimi qəhrəman oğulların sayəsində Vətən bütövlüyünə qovuşmuşuq. Tarix qarşısında başını dik qaldıran xalq, millət olmuşuq.

### *Necə yazmaya bilərik axı sizdən...*

Hər sevincli, uğurlu, xoş günlərimizdə, elə çətin günlərimizdə də siz bizimləsiz. Xoş günü yaşayırıq sizin sayənizdə, çətin günlərimizdə isə sizə baxıb örnək alırıq, gücünüzdən, Vətən sevginizdən, el-oba məhəbbətinizdən... Hər biriniz qəlbimizin əziz, unudulmaz xatirəsinə çevrilirsiniz... Necə danışmaya bilərik axı sizlərdən! Şəhid Kənan Quliyev, sinif yoldaşım, uşaqlıq dostum! Necə unuda bilərəm axı səni! Hələ tarix yazmağın nə olduğunu bilmədən, "Baxarsınız, vaxt gələcək, mən özüm tarix yazacağam", – söyləyirdi. Atalarımız da əbəs yerə deməyib ki: "niyyətin hara, mənzilin ora". Belə də oldu, o, qanı, canı ilə Azərbaycan tarixinə Kənan kimi oğullarla qazanılan Zəfər tarixini yazdı...

Könüllü yazıldı Vətən müharibəsinə. Hələ işinə yeni başlamışdı. Bir ili belə, tamam olmamışdı hərbçi kimi xidmət göstərməyinin. İndi isə Kənanın şəhidliyindən bir il ötür. Döyüş bölgəsinə yollanan Kənan alovun, odsaçan mərmilərin nişangah olduğu yerlərə getdiyini, bu torpağa tuşlanan hər bir mərminin bir ürəkdən keçəcəyini, bir nəfəsi susduracağını yaxşı bilirdi. Qəlbi Vətən eşqi ilə döyünən şəhidimizin el-oba sevgisi, döyüşçü ruhu onu döyüş bölgəsinə aparmışdı. Kənan 2019-cu ildə müddətdən artıq həqiqi hərbi qulluqçu olaraq işə başlamışdı. İşlədiyi qısa müddət ərzində komandirləri yanında və xidmət etdiyi bölüyündə öz hörmətini qazanmışdı. 27 sentyabrdan – əks-həmlə əmri verilən zamandan onu bir hiss narahat edirdi. "Qardaşlarım dardadır, onlara kömək etməliyəm, Vətənim xidmət gözləyir məndən, ona xidmətimi etməliyəm". Dediyi kimi, Kənan xidmətini etdi, Vətənini qorudu və bu borcu yerinə yetirərkən də ən ali zirvəyə – şəhidliyə yüksəldi. Ölümündən sonra qəhrəman şəhidimiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

### *O zamanlar – qürurlu, fəxarətli vaxtlarımız...*

Naxçıvan şəhərinə enən təyyarə ilə bir-bir Vətənə xidmət borcunu canı ilə yerinə yetirən şəhidlər qayıdırdı. Muxtar respublikamızın rəhbəri hər dəfə şəhidləri şəxsən qarşılayıb, dərin ehtiram bildirməklə onların ailələrinə, doğmalarına ən böyük təsəlli verirdi. Bu diyarın insanları böyük qürurla qarşılayırdı şəhidini. Həmin vaxt tanıdım şəhid Nicat Məmmədlini. Atası Rizvan Məmmədov ilə bir binanın ayrı-ayrı təşkilatlarında işləyirdik. Nicat haqqında məlumat almalı idim – məqalə yazmaq üçün. Çox çətinlik çəkərək ataya zəng etdim. Necə soruşacağımı da bilmirdim, çünki bilmədən onun qəlbini incidərəm deyə, düşünürdüm. Mənimlə danışan atanın bir cümləsi bir ildir, mənim düşüncəmdədir: "Oğlumun döyüş bölgəsində göstərdiyi şücaəti, şəhidliyi ilə fəxr edirəm. Bu gün mən və Nicatın iki qardaşı da Vətən uğrunda vuruşmağa, bu yolda canımızdan keçməyə hazırıq. Təki Vətən sağ olsun! Bu torpağın bir qarışını belə, biz düşmənə verən deyilik". Belə məğrur ürəkli, Vətən sevgisi olan ailənin ilk oğlu Nicat Məmmədli 1999-cu il 31 iyulda Culfa şəhərində dünyaya göz açmışdı. 2 nömrəli tam orta məktəbdə təhsil alan Nicat 2013-cü ildə Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdu. 2016-cı ildə təhsilini Azərbaycan Ali Hərbi Məktəbində davam etdirən Nicat hərb elminin sirlərini dərindən öyrənir. Gənc zabit xidmətini edərkən düşməni torpaqlarımızdan qovmaq üçün döyüş əmrinin veriləcəyi günü gözləyir. Döyüş əmri verilən kimi Nicat döyüş yoldaşları ilə Ağdam, Ağdərə, Füzuli bölgələrində düşmənin həmlələrini dəf edir. Gedən döyüşlərin birində də şəhid olur. Ölkə Prezidentinin müvafiq sərəncamları ilə şəhid leytenant Nicat Məmmədli ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad edilməsinə görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

### *Döyüş bölgəsindən aldığımız ard-arda Zəfər xəbəri...*

Nəcəfovlar ailəsində Vətən üçün, xalq üçün canını fəda etməyə hazır olan üç övlad böyüyüb. Həmin övladların valideynləri Məhəmməd və Xuraman müəllimlər birlikdə böyütdükləri vətənpərvər və düşmənə nifrət ruhlu oğlanları ilə fəxr edirlər. Vətən müharibəsinə üç övladını yola salan ata və ana indi daha qürurlu və başı dikdir. Onların tərbiyə etdiyi oğlanları nümunəvi xidmətini yerinə yetirən baş leytenant İsmayıl Nəcəfov, döyüşlərdə sol gözündən yaralanan qazimiz baş leytenant İbrahim Nəcəfov və Vətənə canını fəda edən şəhid Yaqub Nəcəfovdur.

Yaqub Nəcəfov 7 iyul 2000-ci ildə Culfa şəhərində anadan olmuş, 2006-cı ildə Culfa şəhər 1 nömrəli tam orta məktəbin birinci sinfinə qədəm qoymuş, 2014-cü ildə Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi Liseyə qəbul olmuşdu. 2017-ci ildən hərb təhsilini Azərbaycan Ali Hərbi Məktəbində davam etdirmişdi. Dördüncü kursda oxuyarkən, Vətən müharibəsi başlayanda kursant Yaqub Nəcəfov leytenant rütbəsi alıb, döyüşlərə atılır. Füzuli, Cəbrayıl, Şuşa uğrunda gedən döyüşlərdə iştirak edir. Sonuncu dəfə Şuşadan qardaşına telefon zəngi edən şəhidimiz: "Şuşanı aldıq, Qələbə bizimdir, hamı Vətənini sevə bilər, amma hər insan Vətənini şəhid olmağa hazır olacaq qədər sevə bilməz", – deyib. Elə həmin gün ən ali məqama – şəhidlik zirvəsinə yüksəlib. Prezident cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

### *Gedilən yol bizi Qələbəyə apardı...*

Bir xalq olaraq tarixboyu həmişə şərəfli ölümlə fəxr etmişik. Şəhidlik heç zaman bir anın bəhrəsi ola bilməz. Bu zirvəyə yüksələnlər illər keçsə belə, yaddaşlarda əbədi yaşayacaqlar. Ölümün gözünə dik baxa bildiyimiz üçün bu Vətən, bu torpaq, bu yurd nə qədər faciələr yaşasa da, yaşamaq haqqını itirməyibdir. Dediyimiz bir kəlmə söz, içdiyimiz and, verdiyimiz vəd, alimizdən tutub, bizi Vətən üçün ölümə apararsa belə, bu yoldan dönməmişik. Məhz bu qətiyyət, cəsarət, mübarizlik, Vətənə olan sonsuz sevgi sayəsində şəhidlik adlı zirvəni fəth edən oğullarin sayını artırıb. Belə oğullarımızdan biri də şəhid Ceyhun Dünyamalıyevdir. O, 1996-cı il oktyabrın 15-də Culfa şəhərində dünyaya göz açmışdı. 2014-cü ildə Heydər Əliyev adına Hərbi Liseyi, 2018-ci ildə Azərbaycan Ali Hərbi Məktəbini bitirən Ceyhun Beyləqan rayonunda yerləşən "N" hərbi hissədə rabitəçi olaraq xidmətə başlamış, hərb elminin sirlərinə dərindən yiyələnən Ceyhun öz bacarıqları ilə komandanlığın diqqətini çəkmişdi. Bir müddət sonra onu Xüsusi Təyinatlı Qüvvələrə qəbul edirlər. Ceyhunun nümunəvi xidmətinə görə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə də təltif olunur. Bir çox təlimlərdə iştirak edərək peşəkar hərbçi kimi yetişən leytenant Ceyhun Dünyamalıyev 2020-ci il sentyabrın 27-dən xidmət etdiyi bölüyün tərkibində torpaqlarımızın azad olunması uğrunda haqq savaşına atılır. O, igidliyi, şücaəti ilə qorxmaz hərbçi olduğunu sübut edir. Füzuli, Zəngilan, Cəbrayıl, Xocavənd, Qubadlı rayonlarının və Hadrut qəsəbəsinin düşmən əsarətindən qurtarılmasında mərdliklə döyüşən Ceyhun digər ərazilərimizdə də üçrəngli bayrağımızın dalğalanacağı günə kimi düşmən üzərinə gedəcəyinə söz verir. Lakin Ceyhun noyabrın 8-də Şuşa şəhəri uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlir. Ölümündən sonra igid şəhidimiz ölkə rəhbəri cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə","Kəlbəcərin azad olunmasına görə" medalları ilə də təltif olunub.

*Hər birimiz Azərbaycanın müstəqilliyi, bütövlüyü uğrunda qəhrəmanlıqla mübarizə aparan, xalqımızın azadlığını hər şeydən uca tutan, bu yolda həyatlarını qurban verərək ən uca zirvəyə – şəhidlik məqamına ucalanların xatirəsini anmağa həmişə borcluyuq. Onların adları, xatirəsi yaddaşlarda əbədi yaşayacaq.*

**Səriyyə SALAHOVA**
***"Arazın səsi" qəzetinin məsul katibi***

## *"Rəngli xəyallar"* kitabının təqdimatı olub



***Dünən Naxçıvan Muxtar Respublikası Gənclər Fondunda sağlamlıq imkanları məhdud gənc yazıçı Nail Nəvainin fondun dəstəyi ilə nəşr olunmuş "Rəngli xəyallar" kitabının təqdimat mərasimi keçirilib.***



Tədbiri giriş sözü ilə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev açaraq bildirib ki, muxtar respublikamızda gənclərin intellektual inkişafının təmin edilməsi, bilik və bacarıqlarının artırılması, asudə vaxtlarının səmərəli təşkili, qabiliyyətli gənclərin tanıdılması, sağlamlıq imkanları məhdud gənclərin cəmiyyətə inteqrasiyasına dəstək istiqamətində tədbirlər həyata keçirilir. Ötən müddət ərzində fond müvafiq təşkilatlarla birgə müxtəlif könüllülük platformaları yaradıb. Burada hər bir könüllü gənc yaradılan imkanlardan səmərəli istifadə edərək özünü təkmilləşdirə, inkişaf etdirə bilir. Kitabının təqdimatına yığışdığımız gənc yazar Nail Hacıyev həm də bizim könüllü gənclərimizdən biridir.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev çıxışında qeyd edib ki, muxtar respublikada bədii yaradıcılıqla məşğul olan gənclərimiz çoxdur və onların fəaliyyətinə xüsusi diqqət göstərilir. Təqdimatı keçirilən kitabı avtobioqrafik povest, roman da adlandırmaq olar. Burada bir obraz kimi Nailin özünü, valideynlərini görürük. Sevindiricidir ki, "Ümid insan ruhunda doğan günəş kimidir", – deyən gənc qələm sahibi inanclıdır və sabaha daha böyük ümidlərlə baxır.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşı Naib Əlizadə, Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının elmi işlər üzrə direktor müavini Yeganə Rüstəmova və digərləri çıxış edərək Nail Nəvaiyə yaradıcılığında uğurlar arzulayıblar.

Qeyd edək ki, 1996-cı ildə Ordubad rayonunun Tivi kəndində anadan olan bu gənc hazırda Naxçıvan Musiqi Kollecində Kitabxana-informasiya təminatı ixtisası üzrə təhsil alır.

Tədbirdə müəllifin atası Nəvai Hacıyev çıxış edərək muxtar respublikada sağlamlıq imkanları məhdud gənclərə göstərilən diqqət və qayğıya, gənc yazıçı Nail Nəvai isə ona verdikləri dəstəyə görə minnətdarlıq ediblər.

Sonda müəllifin imzalı kitabı tədbir iştirakçılarına paylanılıb.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Sağlamlıq imkanları məhdud şəxslərin muxtar respublikaya səfərləri davam etdirilir

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə ölkəmizin digər regionlarından olan daha 70 nəfər sağlamlıq imkanları məhdud şəxsin muxtar respublikaya səfəri təşkil edilib. Onlar Naxçıvanda yaradılan şəraitdən bəhrələnməklə, Səhiyyə Nazirliyinin Naxçıvan Diaqnostika Mərkəzində, Darıdağ Arsenli Su Müalicəxanasında və Duzdağ Fizioterapiya Mərkəzində müalicə alıb, istirahət ediblər. Əlavə olaraq səfər müddətində qonaqların muxtar respublikanın turizm əhəmiyyətli məkanlarına, o cümlədən Naxçıvan şəhərində yerləşən və Şərq memarlığı incilərindən biri olan Möminə xatın türbəsinə, Əcəmi seyrəngahında təşkil olunmuş Açıq Səma Altında Muzeyə ekskursiyası baş tutub, daha sonra onlar "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olublar. Ekskursiyanın davamında sağlamlıq imkanları məhdud şəxslərin "Əshabi-Kəhf" Dini-Mədəni Abidə Kompleksinə ziyarəti təşkil edilib. Ziyarətin ardından çay süfrəsi arxasında səmimi söhbət olub.



Gəzinti muxtar respublikaya səfər edən sağlamlıq imkanları məhdud şəxslərdə xoş təəssürat yaradıb, onlar göstərilən qayğı və yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 808